# Qəzəl

İnsaf da dinin yarısı, gəl olma zalım, hardasan,
Həsrətindən hər dəqiqə dəyişir halım, hardasan?

Yuxum ərşə çəkilibdir,səhər gözümdə açılır,
Xatirələr aman vermir, bir çimir alım, hardasan?

Yaxam hicran əlindədir o da elə silkələyir,
Dəymişlərim dura-dura tökülür kalım, hardasan?

Huşum başımda cəm deyil, Məcnun kimi sərgərdanam,
Tükənibdir olan qalan ağlım, kamalım, hardasan?

Sıp-sısqayam, qup-quruyam, görən deyir bu nə gündür
Bir dəriyəm, bir sümüyəm, əriyib salım, hardasan?

Saçlarını, gözlərini oxşamıram gör nə vaxtdır,
Ay incə bellim, ipək əllim, gül camallım, hardasan?

Hər görüşdə sevinərdik, xoş əhvalla ayrılardıq,
Ölmürəmmi büsən üçün, ləbləri ballım ,hardasan?

Nə qədər ki, bu Yasinin canında can var biləsən,
Səsləyər car çəkərək gəl, gəl qadan alım, hardasan?

***Yasin Şahmalı oğlu***

Kredo .- 2023.- 14 iyun.- S.13.